# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2014-cü ildə keçirilmiş 7-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-7-2014-8(23)) qalibi olmuş layihə üzrə

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin nömrəsi: **EİF-Mob-7-2014-8(23)-06/04/5-M-03**
Layihənin adı: **Erməni soyqırımı: sənədlər və faktlar**
Müqavilənin imzalanma tarixi: **15 may 2015-ci il**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Sayılov Qalib Əmirağa oğlu**
Layihənin yerinə yetirilmə müddəti: **21 gün**
Layihənin başlama və bitmə tarixi: **22 may 2015-ci il- 30 iyul 2015-ci il**
Qrantın məbləği: **5200 manat**

| | | |
|---|---|---|
| **1.** | *Qısamüddətli elmi təcrübənin keçirildiyi ölkə və şəhər* | Türkiyə Cümhuriyyəti, İstanbul şəhəri |
| **2.** | *Qısamüddətli elmi təcrübənin keçirildiyi təşkilatın və ya onun struktur bölməsinin tam rəsmi adı* | İslam Araşdırmaları Mərkəzi Kitabxanası (İSAM) |
| **3.** | *Təcrübəkeçmənin baş tutduğu təşkilat rəhbərinin adı* | İSAM Başqanı professor Tayyar Altıkulaç |
| **4.** | *Təcrübəkeçmənin baş tutduğu təşkilatda təcrübəkeçməyə məsul şəxsin adı* | AMEA Folklor İnstitututnun aparıcı elmi işçisi ,dosent Qalib Əmirağa oğlu Sayılov |
| **5.** | *Layihənin icra müddəti (dəqiq gediş-gəliş vaxtı dəqiq göstərilməli)* | 21 gün.( 11.06.2015-3.07.2015). |
| **6.** | *Təcrübəkeçmədən əldə edilən elmi nəticələr, onların yenilik dərəcəsi, təcrübəkeçmənin elmi* | **Apardığımız araşdırmalar nəticəsində bəzi elmi yeniliklərə imza atdıq. Belə ki, araşdırma zamanı ilk dəfə Erməni məzalimləri (erməni zülmləri) adlı** |

| | |
|---|---|
| *və praktiki əhəmiyyəti* | əlyazmanın əldə olunması,ermənilərin təkcə Azərbaycan və Türkiyədə deyil dünyanın bir çox yerlərində türk-islam əhalisinə zülmü və qətliamı üzə çıxmışdır. Avropada yaşayan müsəlmanlara eləcə də Rusiya ərazisində yaşayan türklərə etdikləri işgəncələr tərəfimizdən araşdırılmışdır.Məlumdur ki, dini qurumlar həmişə humanist ideyaları yaymış, barışa sövq etmişdir. Araşdırdığımız mənbələrdən aldığımız bilgiyə əsasən məlum oldu ki,ERMƏNİ KİLSƏSİ İSƏ TERRORLA məşğul olmuş, hər yerdə hər zaman türk – islam əhalisinə qarşı şiddəti təbliğ etmişdir.Dr. Erdal İliterin "Ermeni kilisesi ve Terör" adlı əsəri müyyən bilgilər toplamaqda dəyərli mənbəə kimi araşdırmaya istiqamət verdi.Bəzən Dövlətlər Hüququna görə Erməni Məsələsi ermənipərəst yöndən izah olunur,lakin hüquq doktoru, Gündüz Aktan "Türkiyə Günlügü" dərgisində maraqlı faktları ortaya qoyur: "Dünya savaşının sonunda saldırılma sırası Azərbaycan türklərinə keçdi.Bakıdakı bolşeviklərlə birləşən erməni faşistləri oradakı türk əhalisini şəhəri tərk etməyə məcbur etdi. Təkcə Bakıda on- on səkkiz min arası türk müsəlman öldürüldü.Erməni gerila lideri Andranik bir türk müsəlman şəhərini oda qaladı".<br>Araşdırma nəticəsində tükürpədici faktlar bu erməni vəhşilərinin bizim babalarımıza etdiyi zülmün miqyası heç nə ilə ölçüyə gəlmir.6000 dən çox türk islam millətini köçkün edən ermənilər təkcə Naxçıvan və civarında 420 kəndi yerlə yeksan etmiş ,bir o qədərini də yandırıb yaxmışdır. Birinci cahan savaşında Naxçıvan, İrəvan və Qarsda azərbaycanlıların üçdə ikisi yox edildi, bunu yalnız ermənilər etmişdir.<br>Bəzən belə məlum olur ki, guya bütün dünya alimləri bu konuda ermənilərin tərəfidə durur. Bu bir faktdır,lakin bir çox dövlətlərin elmi araşdırmaları onların ideologiyasına yönəlik olmasından irəli gəlir.Elə qərəzsiz alimlər də var ki, onlar öz obyektivliyini, elmin tələb etdiyi obyektivliyi heç bir ideologiyaya qurbn verməyiblər.Təcrübə və araşdırma zamanı o da aydın oldu ki, Amerikalı alim E. Smit erməni məsələsini həm eninə, həm dərininə səbr və vicdanla çözmüş, hələ ermənilərin 1870 ci illərdən Fransada milli hərəkatın başlanmasıyla əlaqədar öz xəbis niyyətlərini ortaya |

| | | |
|---|---|---|
| | | **qoymuş və onlara ömür boyu yaxşılıq etmiş türklərə qarşı şiddəti yaymışlar. Amerkalı alim göstərir ki, heç bir erməni soykırımından söhbət gedə bilməz.Çünki , Osmanlının bütün yönəlticiləri ermənilər idi. 33 konsul, 40- dan çox yüksək dövlət məmuru məhz erməni idi.Eynilə yenə amerikalı alim H. G. O. Dvic ermənilərin həmişə fitnəkar olduqlrını araşdırmalarında qeyd etmişdir.**<br>**Araşdırmanın özəlliklərindən biri də sənədlərdə əksini tapmış erməni qətliamıdır. Elmi praktiki cəhətdən əhəmiyyət kəsb edən bəlgələr araşdırmamızın məğzini təşkil edir.**<br>**Naxçıvan məntəqəsində erməni məzaliminə aid vesaik sənəd olaraq öz faktlığında qalır və əhəmiyyətini heç zaman itirməyəcək.**<br>**NAXÇIVAN, ŞERİL, SƏDƏRƏK, VƏ DƏRƏİLYAS məntəqələrindəki yüz on köydə iki il ərzində ermənilər tərəfindən yapılan yağma və qətllərin raporunu aşkarladıq. Bu raportda qətl olunan insanlar və onların yağmalanan mal mülkü də qeyd olunub. Araşdırma həm elmi, həm də praktik cəhətdən yüksək əhəmiyyətə malikdir. Elmiliyi ondan ibarətdir ki, iki yüzdən çox mənbəyə baxılmış, daha çox arxix sənədləri incələnmişdir.Praktiki əhəmiyyəti isə toplanmış materiallar tərəfimizdən elmi ictimaiyyətin relizəsinə təqdim ediləcək, faktların dili ilə həqiqəti hər yerdə, hər zaman söyləyəcəyik. Əldə olunan faktlar dərc olunacaq, tələbələrə və digər alanlarda təbliğ olunacaqdır. Erməni təbliğat maşınının yalanlarını qabaqlamaq üçün topladığımız bilgilərdən ətraflı istifadə edəcəyik. Təcrübə zamanı hətta erməni Dabağyanın etraflarına da rastladıq.**<br>**Araşdırma elmi və praktik cəhətdən zəngindir və çox dəyərə malikdir. Topladığımız materiallar azərbaycan tarixşünaslığına töhfə ola biləcək xassəyə malikdir.** |
| **7.** | ***Təcrübəkeçmə zamanı istifadə olunmuş üsul və yanaşmalar*** | Mənbələrin seçilməsi,çeşidlənməsi.Avtoqeydlər, kserokopyalar,elektron vasitələrlə qeydə alma. |
| **8.** | ***Təcrübəkeçmə zamanı əldə olunmuş nəticələrin gözlənilən tətbiq sahələri (konkret olaraq qeyd etməli)*** | Qazınılmış biliklərin elektron və ya başqa KİV vasitələrində məqalə kimi dərc olunması. Gələcəkdə kitab şəklində hazırlanması nəzərdə tutulur.Elmi konfranslarda məruzə ilə çıxış etmək. |

**Layihə rəhbərinin imzası ____________**

**Tarix   _7.07.2015-ci il__________**